"VAR-DÖVLƏTİ QƏZET, KİTAB"

Azərbaycanın ilk poliqrafçı alimi Şəddat Cəfərovun 85 illik yubileyi qeyd edildi

Taleyinə Uca Yaradanın lütfü, özünün fədakarlığı, savadlılığı və fərqliliyi sayəsində "ilklərə" imza atmaq yazılmış şəxsiyyətlər həm də şübhəsiz ki, spesifik bir yolun yolçuları, öz sahələrinin avanqardlarıdırlar. Onların doğma xalqlarına xidmətlərinin miqyası ölçüyə gəlməz. Onların içərisində Hacı Zeynalabdin Tağıyev kimi millət ataları da var, Həsən bəy Zərdabi kimi xalqının qiraət müəllimləri də, Polad Həşimov kimi şəhid səngər generalları da. Ömrünün 85-ci ilini böyük ruh yüksəkliyi ilə başa vuran, Azərbaycanın ilk poliqrafçı alimi Şəddat müəllim Cəfərovun tükənməz işığına yığışdığımız Milli Azərbaycan Tarixi Muzeyindəki alqış sədaları altında düşünürəm bunları.

Toplantı zalının oturacaq və stendlərini görkəmli alimin 85 illiyi şərəfinə elə Milli Tarix Muzeyi tərəfindən nəfis tərtibatla çap edilmiş "Mənalı poliqrafçı ömrü" kitabı və yubilyarın haqqında geniş məqalə vermiş "Kredo" qəzeti bəzəyir. Səmimiyyətlə Şəddat Cəfərov işığına toplaşmış hər kəs sevinc içindədir. Poliqrafçı alimin həkim qızı və ömrünün bu çağında onun nazını çəkən Sevinc xanımdan tutmuş, qonaqların ən azyaşlı təmsilçisi Sevindik Nəsiboğluna qədər.

Əvvəlcə Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Məhfuzə xanım yubiley tədbirini açıq elan edərək muzey rəhbərliyinin Şəddat Cəfərova təbriklərini çatdırır. Paralel olaraq qeyd edir ki, bu gün Şəddat Cəfərovla bağlı 69 adda sənəd, üstəlik poliqrafçı alimin təltif edildiyi 25 medal muzeyin eksponatları sırasına daxil edilir.

Əli Rza Xələfli: "Şəddat Cəfərov ruhunun sağlamlığını qoruya bilib"

...Yubiley tədbirinin moderatorluğu isə şair-publisist, "Kredo" qəzetinin baş redaktoru Əli Rza Xələfliyə həvalə olunub. Çıxışların sırası elə ardıcıllıqla düzülüb ki, bu az zaman çərçivəsində hər kəs dəyərli alim barədə fikirlərini bölüşə bilsin. Reqlament sürətlə bir-birini əvəz edən natiqlərə ürək sözlərini tamamilə çatdırmağa zaman tanımır.

Yubilyar barədə təfsilatlı məlumat verən Əli Rza Xələfli xüsusi olaraq vurğuladı ki, Şəddat müəllim həm də ona görə xoşbəxt adamdır ki, yaşının bu çağında da Azərbaycan ədəbi mühitinin bu günü ilə nəfəs alır. Çünki o, ömrünü poliqrafiya sənətinin incəliklərini öyrənməyə və hər zaman öz işinə yeniliklər prizmasından baxmağa adət etmiş bənzərsiz bir ziyalı, alim, poliqrafçıdır. Ən əsası o, ruhunun sağlamlığını qoruya bilib. Bu isə istisnasız olaraq qəhrəmanlıqdır. O, bu illərdə saysız-hesabsız əsərlərin müəllifidir. Son illərdə çap etdirdiyi "Əzəldən bağlıyam sözə" adlı beşcildliyi ilə həyat və yaradıcılığının bütün çalarlarını oxucuların ixtiyarına verib.

Ə.Xələfli tədbir iştirakçılarını Şəddat müəllim də daxil olmaqla Azərbaycanda inkişafa və müstəqilliyə vəsilə olmuş bütün ictimai-siyasi xadimləri, düşüncə adamlarını, döyüşçüləri alqışlarla müşayiət etməyə səslədi.

Təvazö və alicənablıq

Sonra çıxış edən Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq əlaqələr və tərcümə məsələləri üzrə katibi, şair, tərcüməçi Səlim Babullaoğlu öncə AYB sədri, görkəmli yazıçımız Anarın Şəddat Cəfərova yubiley təbrikini çatdırdı. S.Babullaoğlu yubilyar haqqında danışarkən onun bu qədər gördüyü böyük işlər qarşısında daxili təvazö hissi ilə nə qədər alicənab bir şəxsiyyət xarakterinə malik olduğunu dilə gətirdi. Onu da söylədi ki, "çox iş görən adamların az danışması" kimi məşhur qızıl qayda Şəddat müəllimin üzərində bütün varlığı ilə özünü göstərməkdədir. O, çıxışının sonunda isə şair Həmid Abbasın Şəddat müəllimə yazdığı şeirindən aşağıdakı misraları söylədi:

-Var-dövləti qəzet, kitab,
Hər əməli, işi savab.
Əziyyətə gətirir tab,
Dözümlüdür polad kimi.

İlqarı düz, qəlbi həssas,
O danışsın, sən qulaq as.
Bu yazını Həmid Abbas
Bağışlayar sovqat kimi.
Arzum budur hamı əhdə
Sadiq olsun Şəddat kimi.

Xalqımızı "Minasovlardan" xilas edən alim

Azərbaycan Mətbuat Şurasının sədr müavini və "Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu yubilyarı təmsil etdiyi hər iki təşkilatın rəhbərliyi və öz adından təbrik etdikdən sonra onun fəaliyyət sferasının Azərbaycana hədsiz yeniliklər gətirdiyindən nümunələr səsləndirdi. Bildirdi ki, vaxtilə məhz poliqrafiya sənətindən bixəbər olduğumuzdan "Əkinçi"ni çapa hazırlayan böyük Həsən bəy Zərdabi şriftləri düzdürmək üçün erməni Minasova möhtac qalmışdı. Minasov da Zərdabiyə kömək edə-edə qəzetin mətbəxində olan söz-söhbətlərdən Rusiya hökumətinə "donos" ötürməklə məşğul idi.

Səmimi atmosfer şəraitində davam edən tədbirdə T. Aydınoğlunun sözlərinə dəstək verən tədbirin moderatoru Əli Rza Xələfli Şəddat Cəfərovun Azərbaycanda ilk rəngli klişenin və miniatür kitab çapının da müəllifi olduğunu qeyd etdi və bu misilsiz əməyin Azərbaycan xalqının milli-mənəvi xəzinəsinə xidmətin ən gözəl nümunələrindən olduğunu söylədi, yubilyarın əməyinin bütövlükdə sanballı bir arxiv nümunəsi olduğunu qeyd etdi.

Gənc yazar Sevindik Nəsiboğlu Şəddat müəllimin istedadlı gənclərə necə qayğı ilə yanaşmasından, necə dəstək olmasından söz açdı. Azərbaycan Respublikası Baş Prokurorluğunun prokuroru, yazar, AYB üzvü Məmməd Əliyev öz çıxışında poliqraf alimin əməyinə dövlət səviyyəsində qiymət verilməsinin vacib olduğunu söylədi. AYB sədrinin köməkçisi Rauf Aslanov isə artıq AYB sədri Anarın bu məqsədlə müvafiq instansiyalara müraciət etdiyini bildirdi.

Sonra çıxış edən poliqrafçı Mehman Fərzullayev, "Carçı" jurnalının baş redaktoru Gülnarə Əmirquliyeva, Şəddat Cəfərovun məzunu olduğu Bakıdakı 44 saylı məktəbin direktoru Əzizə Abbasova, Nardaran ağsaqqalı Hacı Hacağa Nuriyev, yazıçı-jurnalist Fazil Rəhmanzadə, Rusiyada yaşayan yazıçı Ramil Məmmədov, jurnalistlər Yasəmən Möhübbətqızı, Dəyanət Səlimxanlı, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının əməkdaşı, dövlət Qulluğunun baş müşaviri Rasim Mirzəyev, yubilyar haqqında "İlk poliqrafçı alim" kitabının müəllifi Sevda Əlibəyli, "Gənclik" nəşriyyatının direktoru Adil Qüdrətoğlu, yubilyarın qardaşı Şamil Cəfərov, qızı Sevinc həkim, qohumu Sevda Rüstəmova və bu sətirlərin müəllifi çıxış edərək yubilyara uzun ömür, yeni-yeni uğurlar, can sağlığı arzuladılar, onun gördüyü böyük işlərdən nümunələri dilə gətirdilər.

Çıxışçılar Ş.Cəfərovun "Ulyanovskaya pravda" nəşriyyatının baş direktoru olduğu zaman Rusiyada vətənçilik faliyyətini xüsusilə qeyd etdilər. 20 Yanvar hadisələri zamanı həbs olunub bu şəhərə göndərilən azadlıq aşiqlərinin, vətən sevdalı azərbaycanlıların hər birinə Şəddat müəllim öz nüfuzundan istifadə edərək xüsusi diqqət və qayğı göstərmişdir. Sonralar da həmin şəxslər Şəddat müəllimi unutmamış, bu və ya digər şəkildə ayrı-ayrı zamanlarda minnətdarlıqlarını bildirmişlər. Şəddat müəllim bu barədə məramını belə ifadə edir: "Azadlıq hərəkatının iştirakçılarına qayğı göstərmək mənim borcum idi. Axı mən həmişə deyirəm. Hər kəs vətəndən uzaqda vətənin bir parçasıdır. Vətən isə vətəndaşları ilə tanınır".

Tədbirin sonunda yubilyar Şəddat Cəfərov adəti üzrə qısa nitq söyləyərək tədbirə təşrif buyuranlara təşəkkür etdi. Əlavə etdi ki, bu qədər xalq sevgisinin, sevinc-fərəh hissilə bu tədbirə axıb-gələnlərin varlığı, eləcə də dövlətimizin ona qayğısı sübut edir ki, onun çəkdiyi əziyyətlər, yaratdıqları hədər getməyib. Sonra o, bir qədər Lənkərandan başlayan həyat yolundan, bir qədər Azərbaycanda və Rusiyada keçən əmək fəaliyyətindən söhbət açaraq bu tədbirə şərait yaratdıqlarına görə Milli Azərbaycan Tarixi Muzeyinin rəhbərliyinə öz təşəkkürlərini çatdırdı. Yenə də öz missiyasına, təvazökarlığına sadiq qalan Azərbaycanın ilk poliqraf alimi Şəddat Cəfərovun çıxışı alqışlar altında başa çatdı.

Sonda tədbir iştirakçıları yubilyarla xatirə fotoları çəkdirdilər.



Nəzirməmməd ZÖHRABLI